# "Zəfəri nurlandıran Nurlan"ın işığında...

**Şəhid leytenant Nurlan Nadir oğlu Həsənova həsr etdiyim "Zəfəri nurlandıran Nurlan" adlı kitabımın təqdimatı və Şəhidimizin mövlud günü ilə bağlı olan tədbir haqqında təəssüratlarım.**

Vətən uğrundasevə-sevə canlarını fəda etmiş Şəhidlərimiz bizim and yerimiz, ömrümüzün sonunadək haqqını ödəyə bilməyəcəyimiz qəhrəmanlarımızdırlar. Şanlı Vətən müharibəsindən əvvəl olduğu kimi müharibədəqazandığımız parlaq qələbədən sonra da heç bir zaman zəfəri qazanmaq üçün canını fəda etmiş Şəhidlərimizi unutmadıq, unutdurmadıq və bu, əbədiyyən belə də olacaq. Vətən müharibəsi başlayan andan bu vaxta qədər olan müddətdə 100-dən çox Şəhidimiz haqqında şeir, məqalə, şəhid ailələri ilə müsahibələrim olmuşdur.

Həmçininşəhidlərimiz barədə məlumat əldə olunması üçün 600-ə yaxın Vikipediya səhifələri hazırlamışam. İşğaldan azad edilmiş vətən torpaqları, onu azad edən vətən qəhrəmanlarına həsr etdiyim şeirlərim, məqalələrim, şəhid ailələri ilə apardığım müsahibələrim və hazırladığım Vikipediya səhifələrimdən bir hissəsi 2021-ci ildə çap etdirdiyim 708 səhifədən ibarət olan,sayca 5-ci,"Möhtəşəm Zəfərin nişanəsi" adlı kitabımda cəmlənmişdir. Eyni mövzuda qələmə aldığım, 300-ə yaxın şəhidimizdən bəhs olunan "Dirçələn Xarıbülbül" adı ilə sayca 6-cı olacağını gözlədiyim kitabımın materiallarını isə dövlət vəsaiti hesabına çap etdirilməsi üçün 2022-ci ilin oktyabr ayından Mədəniyyət Nazirliyinin müvafiq komissiyasına təqdim etsəm də hələki bir səs-soraq yoxdur. Əgər yaxın vaxtlarda nazirlikdən müsbət nəticə əldə olunmasa, onu da bu il, inşəAllah,ailəmin vəsaiti hesabına çap etdiribşəhid ailələrinə və qiymətli oxucularıma çatdıracağam.

Bu ilin aprel ayında uzun müddət üzərində işlədiyim, materiallarını topladığım və kitab halında çapa verdiyim, şəhid leytenantımız Nurlan Nadir oğlu Həsənova həsr etdiyim "Zəfəri nurlandıran Nurlan" adlı sayca 6-cı kitabım işıq üzü gördü. Kitabın işıq üzü görməsi məni nə qədər sevindirdisə, şəhidimizlə bağlı çap olunduğu üçün ondan daha çox fərəhləndim, qürurlandım. Kitab çap olunduqdan sonra onun təqdimatı ilə bağlı şəhidimizin ailə üzvləri ilə məsləhətləşmələrimiz oldu, onların təşəbbüsü ilə tezliklə bu arzum gerçəkləşdi. Şəhidlərimizi unutmayıb unutdurmamaq, hər an yaddaşlarda saxlamaq və bunun üçün əlimizdən gələni etmək bizim borcumuzdur. Ancaq həcmindən asılı olmayaraq Şəhidlərin yolunda sərf olunan bu əməyin şəhid ailələri tərəfindən dəyərindən artıq qiymətləndirilməsi müəllifi çox fərəhləndirir və ona gələcək üçün stimul verir. Bu sözlər haqqında danışacağım tədbir üçün tamamilə doğrudur. Vaxtınızı almadan tədbir haqqında məlumat vermək istəyirəm.

19 may 2023-cü ildə, saat 16:00-da Bakı şəhərində Şuşa Dövlət Musiqili Dram Teatrında şəhid leytenant Nurlan Nadir oğlu Həsənovun mövlud günü və barəsində yazdığım, sayca 6-cı "Zəfəri nurlandıran Nurlan" adlı kitabımın təqdimatı ilə bağlı tədbir keçirildi. Tədbirdə ictimai xadimlər, ziyalılar, şəhid ailələri və qazilər, dövlət təşkilatlarının nümayəndələri iştirak etdilər. Tədbir çox diqqətəlayiq, elə şəhidimizin adına layiq bir şəkildə keçdi. Belə ki, tədbir başlamazdan bir neçə dəqiqə əvvəl zala giriş etdiyim zaman binanın foyesinin iştirakçılarla dolduğunu gördüm. Onlar tədbirin başlamasını səbirsizliklə və böyük həvəslə gözləyirdilər. Tədbirə olan maraq çox təqdirəlayiq və hətta gözqamaşdırıcı səviyyədə idi. Tədbir iştirakçıları israrla tədbirin başlamasını istəyir və bunu səbirsizliklə gözləyirdilər. Nəhayət, tədbir başladı. Tədbirdə iştirak etmək istəyənlər bir anda zala axın etməyə başladılar. Zalda oturacaqlar tam dolduğundan insanların bir hissəsi hətta ayaq üstə olmaları ilə razılaşaraq tədbiri izləməyə başladılar. Bu, vətən övladlarının vətən şəhidinə, vətən fədaisinə olan ehtiramından, sevgisindən irəli gəlirdi.



Tədbir Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin İdarə Heyətinin üzvü, ixtisasçı, çox hörmətli Arzu xanım Əliyeva tərəfindən təşkil edilmişdi. Tədbirin aparıcısı da Arzu xanım özü idi. Arzu xanımla şəhidimizin cənnətdə 2-ci mövlud günü ilə bağlı olan tədbirdən, yəni bir il əvvəldən tanış idim. Təqdimatı keçirilən"Zəfəri nurlandıran Nurlan" adlı kitabımda onun da şəhidimizlə bağlı olan məqaləsi yer almışdı.Arzu xanım tədbiri başlanğıcdan sona qədər çox gözəl və çox maraqlı bir şəkildə apardı. Belə ki, tədbir o qədər maraqlı keçdi ki, tədbirin 3 saatdançox davam etdiyini iştirakçılar, hətta ayaq üstə tədbiri izləyənlər belə hiss etmədilər, yorulmadılar. Tədbirin maraqlı ssenarisi buna imkan verdi.

Zalın səhnəsi şəhidimizin özünə layiq şəkildə bəzədilmişdi. Mənsəhnədə sağda, kitabımın və kitab barədə məlumat verilmiş, ən gənc müxbiri olduğum "Kredo" qəzetinin nüsxələrinin düzüldüyü stendlərin ikincisinin önündə oturmuşdum.



Əslində, şəhid ailələrinin məni və tədbiri izlədiyi bir zamanda onların önündə oturmaq məni sıxırdı.Çünki başdan sona qədər səhnədə, ucada olmaq şəhid ailələrinin haqqıdır. Mən sadəcə borcumu az da olsa, yerinə yetirməyə çalışmışdım. Lakin Arzu xanım mənə dərin hörmət göstərdi və onun təkidi ilə səhnədə oturmağa razı oldum.

İlk olaraq Arzu xanım məni səhnəyə dəvət etdi, mən səhnədə oturdum. Sonra isə o, məni tədbir iştirakçılarına təqdim etdi, tədbir başlamazdan qabaq dediyi kimi, mənimlə bağlı öz əlləri ilə yazdığı 4 səhifəlik çıxışını başdan sona kimi iştirakçıların diqqətinə çatdırdı.Sonra isə çıxış üçün mənə söz verdi. Çıxışımla bağlı olan məlumatları hələlik yazmayıb oxucuları bir qədər intizarda saxlamaq istəyirəm. Onu deyə bilərəm ki, kitabın yazılma və çapdan çıxma prosesi, şəhidimizin ailəsinin mənə olan hörmət və etimadından danışaraq kitabda və tədbirin təşkilində əməyi keçən hər kəsə minnətdarlığımı bildirdim. Sonda isə şəhidimizə həsr etdiyim "Şuşanı ruhuyla fəth edən Nurlan" adlı şeirimi söylədim. Tədbir iştirakçıları mənə bir daha böyük diqqət göstərərək çıxışımı alqışsız qarşılamadılar. Çıxışımı bitirdikdənsonra Arzu xanım şəhidimizə həsr edilmiş, kitabda çap edilmiş və başqa müəlliflər tərəfindən yazılmış şeirləri səsləndirdi. Həmçinin şəhidimizin anası əziz Həqiqət ananın oğluna yazdığı, olduğu kimi kitabda çap etdirdiyim şeiri başdan sona səsləndirdi.

Sonra isə səhnəyə şəhidimizin valideynləri - Nadir əmi və Həqiqət ana səhnəyə dəvət edildilər. Həqiqət ana və Nadir əmi çıxışlarında tədbir iştirakçılarıa və tədbirin təşkilatçılarına təşəkkürlərini bildirdilər, Nurlanlarından, onun həyat və döyüş yolundan danışdılar, övladları ilə bağlı xatirələrini bölüşdülər. Kitabdan da söhbət açaraq mənim kiçik əməyimə böyük qiymət verdilər və mənə təşəkkürlərini bildirdilər. Onu da tədbir iştirakçılarının diqqətinə çatdırdılar ki, kitab fiziki, maddi və mənəvi cəhətdən şəhid ailəsinə heç bir əziyyət verilmədən, incitmədən çap edilmişdir.Yenə də qeyd etmək istəyirəm ki, Şəhidlərimizə həsr etdiyim bütün yazılarım, o cümlədən də bu kitab ölümü ilə ölümsüzlük qazanan şəhidimizin qarşısında olan borcumuzun az da olsa, cüzi bir hissəsinin ödənilməsi üçün ərsəyə gəlmişdir və gələcəkdə də buişlərimi yorulmadan davam etdirəcəyəm.

Şəhidimizin valideynlərinin çıxışından sonra isə ictimaiyyət və dövlət nümayəndələri söz aldılar. Şuşa Rayon İcra Hakimiyyəti başçısının birinci müavini çox hörmətli Vüsalə xanım Fətəliyeva çıxışında şəhidlərimizdən və Şuşadan olan şəhidimiz Nurlan Həsənovun məşəqqətli həyatından danışaraq tədbir iştirakçılarınageniş məlumat verdi. O, şəhid ailələrinə səbir, dözüm arzuladı. Sonda isə "Zəfəri nurlandıran Nurlan" adlı kitabdan danışıb mənə təşəkkürünü bildirərək yaradıcılıq uğurları arzuladı. Onu da qeyd edim ki, kitabımda Vüsalə xanımın şəhidimizin 2-ci mövlud günü münasibətilə keçirilən tədbirində etdiyi çıxış başdan sona qədər yer almışdır.

Sonra isə tədbirdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və şəxsən komitə sədri çox hörmətli Bahar xanım Muradovanın nümayəndəsi kimi iştirak edən Həsən Əliyev də çıxış etdi. O, dövlətimiz tərəfindən şəhidlərə və şəhid ailələrinə verilən dəyərdən söz açdı. Qeyd edim ki, tədbirə Bahar xanım Muradovanı da dəvət etmişdim. Lakin anlaşılan üzrlü səbəbdən və ağır iş qrafiki ilə əlaqədar olaraq Bahar xanım tədbirdə iştirak edə bilmədiyindən komitənin nümayəndəsi olaraq Həsən müəllim tədbirə qatılmışdı. Tədbir başlamazdan əvvəl mənimlə görüşən Həsən müəllimlə çox səmimi bir söhbətimiz oldu. O, mənə yaradıcılıq uğurları arzuladı. Mən isə ona təşəkkürümü bildirdim və həm ona, həm də Bahar xanıma kitabımı imzalı olaraq hədiyyə etdim.

Hörmətli şairəmiz, şəhidlərimizlə bağlı çoxlu sayda şeirlərin və bir çox kitabların müəllifi olan Kəmalə xanım Abıyeva da şəhidlərimizlə və şəhidlərimizə verilən dəyərlə bağlı çıxış etdi. O, tarixən, ən yaxın tarixdə isə Birinci Qarabağ müharibəsindən bu yanaVətənimizin başına gətirilən müsibətlərdən, xalqımızın çəkdiyi əziyyətlərdən və verdiyi şəhidlərdən danışdı.

Tədbirdə yazıçı-publisistimiz Nəzakət xanım Kərimova-Əhmədova da iştirak edənlər arasında idi. O da çıxışında şəhidimizdən və "Zəfəri nurlandıran Nurlan" adlı kitabımdan danışdı. Mənimlə bağlı gözəl sözlər dedi, mənə uğurlar arzuladı və mənim barəmdə olan məlumatları bir daha tədbir iştirakçılarının diqqətinə çatdırdı. Çıxış əsnasında yenicə çapdan çıxmış kitabı olan "Gecikmiş çiçəklər" adlı kitabından danışdı və kitabın bir nüsxəsini mənə və Həqiqət anaya hədiyyə etdi. Mən gözəl çıxışı və hədiyyəsinə görə Nəzakət xanıma dərin minnətdarlığımı bildirdim. Qeyd edim ki, həmin kitabda Nəzakət xanımın mənimlə olan maraqlı müsahibəsi də yer almışdır.

Tədbirin gedişi zaman şəhidimizə həsr olunan videoçarxlar,orta məktəb illərində tədbirlərdə vətənpərvərlik mövzusunda onun alovlu şeir söyləməsinə aid, məktəb illərinə aid olan digər video-çəkilişlər də göstərildi. Bu vaxt tədbir iştirakçıları arasındadaha çox duyğulu anlar yaşandı və heç kəs göz yaşlarına hakim ola bilmədi.

**(Davamı var)**